
Sönmüş Ümidlər
"Həyatımız ucuz imiş"
Tofiq Vəliyev

Tofiq Vəliyev

# Sönmüş ümidlər

*(Həyatımız ucuz imiş)*

Bakı-2019

Yenə normal günlərimdən biri idi. İşə getmək üçün oyandım. Hər səhər belə sıxıcı olurdu. Xüsusən, evlənəcəyim günə yaxınlaşdıqca daha da qəribə olurdu. Hər şeyə rəğmən hər kəs bilmədən danışır: çox xoşbəxt olduğumu deyirdilər. Bəlkə, bu söhbətlər gəzdiyi üçün valideyinlərim mənlə maraqlanmırdılar.

Əslində isə heç də xoşbəxt deyildim. Yəni ölmək üçün gün sayırdım desəm daha düzgün olar. Bir neçə dəfə olub ki, mən ölümə getməyi seçmişəm amma alınmayıb. Bütün həyatımı valideyinlərim istədiyi kimi keçirmişəm. Onların istədiyi universiteti oxuyub, onların istədiyi yerdə işləyirəm. İndi isə onların istədiyi qızla evlənirəm. Qəribədir, elə deyilmi? Düşünün ki, bütün ömrünüz bir ssenari üstünə yazılıb və sizdən bu rolda oynamağınız tələb olunur. Bilirəm, mən o qədər cəsarətli biri deyiləm. Dərslərimdə, iş həyatımda uğurlar qazanmağıma baxmayın. Heç də güclü deyiləm. Mən valideyinlərimin mənə qurduğu qaladan başqa heçnə görməmişəm. Bir sözlə deyək, bu qaladan bayıra çıxmamışam, həyatı yaşamamışam. Elə buna görə də ölmək istəyirəm. Yetərincə xoşbəxt deyiləm. Keçən dəfə anamla danışmaq istədim:

_Ana, mən o qızla evlənmək istəmirəm. Sevmirəm onu. Necə axı bir ömrümü onunla keçirəcəm. Bu yanlış addımdır.

Bütün bu sözlərimə qarşılıq anam tək bir cümlə dedi: “Bəs verdiyimiz söz? Ailəmizin etibarı?” Bütün bunlar mənim həyatımdan dəyərli idi. Yəni mən onlara borcluydum. Çünki onlar olmasaydıç mən bu həyatda olmazdım. Kaş ki, bu həyatda olmazdım!

Yenə hirsləndim, yenə qaçmaq istədim. Amma mən heç həyatı görməmişəm, onu yaşamamışam, nə edəcəyəm? Yenə qalıram burda. Bu da o deməkdir ki, mən bu həyatımla barışacam. Çox qəribədir, elə deyil mi? Həyatımda heç sevmədim, sevilmədim. Bu duyğuların nə olduğunu bilmədim. Bir qızın əlindən

tutmadım, saçlarını hörmədim. Əslində məndə sevmək istədim, aşiq olmaq istədim. Sinif yoldaşlarım kimi, tələbə yoldaşlarım kimi asudə vaxtımı futbol oynamaq, ps-ə getmək istədim. Lakin mane olan şey mən məktəb birincisi olmalıydım. Mən savadımla fərqlənməli idim. Niyə axı? Niyə fərqlənməliydim? İndi yaxşıdır? 600 manatdan çox maaş alıram. Ev, maşın, iş var. Bəs xoşbəxtlik? Bax o yoxdur. Yerimdə olmağı istərsiz? Təbii ki, hə. Amma yerimdə 10 dəqiqəlik olmaq istərsiniz çünki, xoşbəxtlik olmadan heç də yaşamaq mümkün deyil...

***

İndi sizə özümü təqdim edim. Mən kiməm? Adım, soyadım, hamısını danışım. Mənim adım Murad, soyadım Həsənov, ata adım İslam, ana adım Nərgiz. Həyata göz açdığım o gün, kaş ki açmasaydım. Sentyabr ayının 24-ü 1996-ci il. Təbii ki valideyinlərim sevincdən uçur. Onların uşaqları olmurmuş. Mən çox uzun bir zamandan sonra ailəmizə daxil olmuşam. Atamın şəxsi biznesi var. Avtomobil satışı, kirayəsi ilə məşğul olur. Bundan əlavə köhnə evləri alıb təmir edib satır. Bununla da çox pul qazanır. Anam normal, işləmir amma diplomu var. İşləri isə hər gün yeni bir paltar almaq. Saçlarını düzəltdirmək, dırnaqlarını düzəltdirməkdir. Ara-sıra rəfiqələri ilə görüşüb söhbət daha doğrusu qeybət edirlər. Biz nənəmgildən ayrı qalırıq və onları o qədər də tanımıram. Çünki atamla anam evlənəndə qarşı çıxıblar və bunlar qaçıb. O gün bu gün danışmırlar. Bunu da bir tərəfdən anlamıram. Olub, keçib nəyin davasını edirsiniz? Sevib evləniblər. Xoşbəxtdirlər.

Bu cəmiyyət öldürəcək məni. Bu boş düşüncələr, boş danışan adamlar. Millət olaraq ya özümüzə gələcəyik, ya da özümüzü itirəcəyik. Mən belə düşünürəm.

Nəysə keçək məktəbə. Heç bilmirəm necə danışım. Həmişə uşaqlar tərəfindən döyülürdüm. Dəfələrlə valideyinlərim gəlib şikayət edirdi və uşaqlar mənə gülürdülər, lağ edirdilər. Bir

sözlə, məktəb həyatım heç də yaxşı keçməyib. Dərslərim, müəllimlərim məndən razı idilər. Amma mən məktəblə barışa bilmirdim, xəyal qura bilmirdim, nə olacağam deyə özümə sual verə bilmirdim. Müəlliməm belə sual verəndə, sinifdəki oğlan uşaqlarının dediyi “polis olacağam” sözünü deyirdim. Lakin nə olacağımı bilmirdim. 11 illik məktəbim bir son zənglə bitdi. 11 ildə bir dəfə də olsun məktəbdən sonra başqa bir yerə getmədim. Dərs ev, dərs ev belə davam etdi. Qəbul imtahanında 695 bal yığdım. Valideyinlərim sevincdən uçurdular. Məni düşünən yox idi. Mən gözlədim ki, universitet seçimimdə mənim bir fikrimi soruşan olacaq. Amma olmadı. Mənə anam və atam seçim etmişdi, Bakı Dövlər Universiteti Hüquq fakültəsinə.

***

Seçimlər bitdi və qəbul oldum. Qəbul olmağımın şərəfinə ziyafət verildi. Gələn-gedən məni qucaqlayıb təbrik edirdi. Az qalırdım ağlıyam. Ora mən qəbul olmamışam. Qaytarın həyatımı, 18 ilimi geri. Olmurdu, bacarmırdım. Hər qərarımı onlar verirdilər: “Bu paltar yaraşmaz, uzun saç, əşşi o nədi arvad kimi, sonra deyərlər ki, İslamın oğlu saçını arvad kimi uzadıb”. Bütün hərəkətlərinizlə bacarırdınız həyata nifrət etdirməyi. Kim istəyər ki bu gənc yaşda ölməyi. 11 il məktəb, 4 il universitet oxudum. Amma yaxın dostum olmadı. Yalnız bir dəfə 3-cü kursda Gülnar adlı bir qızla yaxın oldum. Çox yaxşı biri idi. Mənə demək olar ki, həyatı necə yaşamaq lazımdı başa salırdı. Düzdü, o başa salırdı, amma mən tətbiq edə bilmirdim. Mənim valideyinlərim axı nə vaxt başa düşəcəkdilər ki, bu həyatı mən yaşayıram onlar yox. Gülnarın çoxlu dostları vardı. Özü bu fakültəni istəyib gəlmişdi. Mən deyəndə ki, “sən çox xoşbəxt qızsan” cavab olaraq: “Heç nə göründüyü kimi deyil ki. Mən bu fakültədə oxumaq üçün çox əziyyət çəkmişəm. Bax Murad, bu cəmiyyətdə, bu toplumda səni anlamaları çox çətindi. Xüsusən də, sənin düşüncən fərqlidirsə, Səni kənarlaşdırarlar, daşlıyarlar. Bir sözlə, düşüncənə görə öldürərlər”. Mən onda

Gülnarın nə demək istədiyini anlamadım. Lakin indi çox yaxşı başa düşürəm.

Valideyinlərimlə danışacam. Artıq qərarlarıma diqqət göstərmələri lazım olduğunu başa salmalıyam. Əgər başa düşməsələr gedəcəm burdan.



İş vaxtım bitməmiş evə gəldim. Anam evdə idi. Rəfiqələri də burda idi. Anamın yanında oturan rəfiqəsi məni nişanlamaq istədikləri qızın anası idi. O birilərə də göz qaş edib, məni göstərdi. Məni gözucu süzüb, pıçıldaşdılar. Salam verib, anamı çağırdım:

_Hə Murad nədir? Tez de ayıbdı, qonaqlarımız inciyər.

_Yaxşı, ana! Axşam atamda gəlsin, sizlə danışmalıyam.

_Buna görə məni çağırmısan?!

Deyib tez rəfiqələrinin yanına qayıtdı. Otağıma çıxıb, üst-başımı dəyişdim. Axı anam niyə belə edir? Mənim ciddi problemim onu narahat etmir? Qəribədir. Bəzən elə düşünürəm ki, tək mənim valideyinlərim belədir. Övladlarının verdiyi qərarları dinləməyən, onların həyatlarına qarışan. Lakin sonra xəbərlərdə göstərilən gənclərin intiharı və intihar səbəbləri adamı dəhşətə gətirir. Gəncədə 17 yaşlı qız dərman içib intihar etdi. İntihar səbəbi kimi, zorla evləndirilmək və yaxud da sevgilisindən ayrılmaq. Ən çox intihar səbəbi isə qəbul imtahanları olur. Valideynlərinin yüksək hədələrinə görə imtahandan kəsiləndə intihar edən nə qədər gənc var. Hələ həyatlarının o gözəl çağında ölürlər. Axı nəyə lazımdı diplom? Şifonerin üstündə tozlanmağa? Ya qız istəməyə gedəndə, oğlumuz filan universiteti qırmızı diplomla bitirib deməyə? Yaxşı bu səbəblərə görə övladınızın canından keçməyə dəyərmi?

***

Mənim sinif yoldaşım Əlini atası o qədər döymüşdü ki, uşaq 2 həftə yerdən qalxmamışdı. Yazıq uşaq nədi nədi sınaq imtahanında 210 bal yığıb. Hələ mən gördüyüm bu idi. Bir siz düşünün nə qədər adam var. Dəyərli valideynlərimiz, övladınızın gələcəyi üçün nə fikirləşirsinizsə, bir zəhmət öncə onlarla danışın. Maraqları olduqları ixtisası öyrənin. Biraz övladınızla maraqlanın, vaxt keçirin onlarla. Tələb etməyin. Məsuliyyət verməyin! Məsuliyyət daşıyın!

Atam gəldikdən sonra birlikdə şam yeməyi üçün masaya keçdik. Anam mövzunu açdı:

_Hə Murad, atan gəldi, danış görək bizə nə deyəsi idin.

Atam önündəki boşqabdakı yeməkdən başqa heç nəyə diqqət yetirmirdi. _Ata! Ana! Sizə öncə deyim ki, bu yaşa kimi çox sağ olun böyütdünüz məni. Qarnımı doyuzdurdunuz, geyindirdiniz, oxutdunuz. Amma məni istəmədiyim şeylərə vadar edirsiniz.

Cümləmi bitirməmişdim ki, atam: “Nə Murad, sən nə danışırsan? Nəyə vadar etmişik? Özün deyirsən oxutmuşuq, yedirtmişik, geyindirmişik! İndi də evləndirəcəyik. Bu təbiətin qanunudur, oğlum. Sən də evlənib ailənin rəisi olmalısan. Övladlarına ata olmalısan” dedi. Susdum, bir neçə dəqiqədən sonra yenə dedim: “Ata elə deyil, siz bütün bunları etdiniz, amma məndən soruşmadınız Murad istəyirsən? Murad bura yaxşıdır? Heç soruşmadınız”.

Atam tərs-tərs üzümə baxdı, anam masanın altından ayağımı çimdikləyib gözüylə işarə etdi. Bu işarə “sus” demək idi. Elə bil xüsusi nizam qurulmuşdu. Hər şey ardı-ardınca olurdu. Atam gözlərindəki qəzəbi sözləri ilə üstümə tökdü.

_Bu eşşəyə bax sən! Küçük! Nə olmaq istəyirdin? Hə, küçə avarası? Narkoman? Əəə oxudub adam eləmişəm səni!!! Ay qanmaz ! Sənin yerində nə qədər adam olmaq istəyir xəbərin var?!.

Atam qışqıra-qışqıra danışır. Mən isə başımı sallayıb ona qulaq asıram. “Yox Murad, danışmalısan”, deyir içimdə bir səs. Özümü toparlayıb: “Ataaa!- dedim- qulaq as mənə! Mən nə narkoman olası idim, nə də avara. Niyə elə düşünürsən? Mənə gəlib fikir deməmisən. Universitet sənin istədiyin, paltar, saç, həyat hamısı sənin seçimindi. Bunların içində bir şey göstər ki mənə aid olsun. Mənim seçimim olsun”.

Atam dözmədi qışqırıb üstümə, sifətimə möhkəm şillə vurdu. Anam ayağa qalxıb atamı sakitləşdirdi, onu kənara apardı. Gəlib məni danlayır:

_Ay oğlum, sənə noldu axı? Nədən xoşun gəlmir? Gül kimi ev, gül kimi iş, yaxında da gül kimi qız alırıq sənə.

_Ana, başa düşün istəmirəm!

Anam yenə ailə söhbətini, verdikləri sözü mənim gözümə soxdu.

***

Nəysə bunlar məni anlayası deyillər. Otağıma çəkildim. Bəlkə çantamı yığıb qaçım evdən? Düşündüm, amma qaça bilməzdim. İndi yox necə olur olsun razı salmalıyam. Başa düşməlidirlər. Yaxşısı budur gecə yataq, sabah yenə danışım. Bu mövzu hər gün səslənəcək. Taa ki onlar anlayana qədər, anlamasalar gec olacaq. Mən artıq intihar barəsində düşünürdüm. Çünki anlamırdılar məni. Dərdimi danışacağım dostum da yox idi. Dostumun olmadığına ağlıyırdım. Həyatın mənə hər şey bəxş etdiyini sanan acizlərə görə ağlayırdım. Düşüncələrimi satırdım, valideyn qərarına. İllər öncə aşiq olduğum qızı da almışdılar məndən. Bəli Gülnar idi o. Mənim üçün təkcə o vardı. O danışırdı, mən dinləyirdim. Danışmırdım onun yanında. Çünki Gülnar həyatdan görmüşdü, gəzmişdi, bilirdi. Mən isə onun kimi birisinin yanında danışsam, görməmiş kimi baxmasından qorxurdum. Amma həqiqət o idi. Mən həyatda evdən və dərsdən başqa heçnə görməmişdim. Valideynlərimlə gəzdiyim yerlərdən başqa heç yeri görməmişdim. Gülnarı universitetin ilk günlərindən tanıyırdım. O artıq gələn kimi özünə çoxlu dost qazanmışdı. Hətta bir neçə dəfə mənlə dostluq qurmağa çalışıb, amma mən imkan verməmişəm. Lakin 2-ci kursun 2-ci semestri Gülnarla əlaqə qurdum. Bufetdə də olsa ara-sıra görüşürdük. Hər gün fərqli mövzularda danışırdı. Mən Gülnardan öyrənmək üçün, saatları iplə çəkirdim. Bu qızın həyatı bu gözəl başa salması mənə çox qəribə gəlirdi. Hər dəfə evə gəlib valideynimlə

danışmaq istəsəm də alınmırdı. Bəlkə o vaxtlar danışsam, çabalasam indi belə bir şeyə məcbur qalmazdım.

***

Ey ata! Ey ana! Bu nə idi? Məni necə bir çıxılmaz yola atdınız. Axşamkı hadisədən bir neçə saat keçmişdi. Otağımın qapısı döyüldü. İçəriyə daxil olan atam idi. Gəldi: "Olar, oğlum?" "Gəl, ata"- dedim. İçəri keçdi.

_Bax, oğlum! Mən indicə səni vurmaq istəmədim. Bilirsən necədi, bu həyat sandığın qədər asan deyil. Bilirsən, küçələrdə nə qədər insan ölür? Bilirsən, həyat hər kəsə acımasız davranır? Bilirsən, həyat sevdiklərimizi bizdən alacaq qədər qəddardı. Oğlum, mən səni çox istəyirəm. Bəlkə bilmirsən, mənim atam imkanlı biri olmayıb. Mən küçələrdə, işləyə-işləyə bütün bunları etmişəm. Mən küçələri görmüşəm. Qan qoxan, zalımlığın, acımasızlığın olduğu yerləri görmüşəm. Sənin o günləri o acıları yaşamağını istəmirəm. İstəsən, dostlarınla görüş, amma vaxtında evdə ol!
_Ata, mənim heç dostum yoxdu!..

Bu söz dedim və sükut çökdü. Atamın gözləri otağımın qapısının dəstəyinə zilləndi. Elə dolğun, yazıq-yazıq baxırdı ki, içim acıyırdı. Sanki atam məndən xəbəri yoxmuş indiyə qədər. Daha bir cümlə də deyib üzmək istəməzdim, amma deməliydim. Atamla bu danışıqları etməliydim:

_Ata, düz eşitdin, heç dostum yoxdur. Çünki dərslərdən, işdən başqa heçnə etməmişəm indiyə qədər. Özümə əlavə bir vaxt tapan kimi qoymamısız başqa bir yerə gedəm. Həmişə yeni bir yerə gedəndə, mənim gözüm yaşıdlarımda qalırdı. Onların hərəkətlərini evdə təkrarlayıb eynisini məktəbdə edirdim. Ata, indi məni başqa bir qızla evləndirirsiz. Bəs qız? Bəs mən? Bizim

həyatımız necə olacaq? Ata, imkan verin biraz vaxt keçsin özüm bir qız sevim onunla evlənim.

Atama bunu demişdim ki, atam yenidən əsəbləşdi və yenə anamın işlətdiyi sözü təkrarladı: "Ailə şərəfimiz, verdiyimiz söz". Bax bunlar iki gəncin həyatının məhvinə gətirə biləcək sözlərdir. Atam əsəbləşib çıxdı otaqdan. Mən də bütün gecəni yatmadım. Gah oyana, gah da bu yana fırlandım. Səhər yemək yeməyib birbaşa işə getdim. Ərizəmi yazıb işdən çıxdım. Valideynlərimə bu barədə məlumat çatmadan mən şəhərdən çıxmalı idim. Atam indilərdə şirkətə gedir və anamda rəfiqəsi ilə görüşəcək. Yəni evdə heç kəs yoxdur. Tez evə tərəf yollandım. Paltarlarımı çantama yığmışdım. Çoxdandı yığdığım pulu da götürüb evdən çıxdım. Avtomobilimlə hara gəldi gedirdim. Bir yol var idi, düz onu izləyirdim. Yəni yolun sonu harada idisə, orada dayanacaqdım. Qərb istiqamətə doğru hərəkətdə idim. Artıq Gəncə şəhərinə çatmışdım. Burada biraz istirahət edəcəkdim. Günorta saat 3 olardı. Restoranlardan birinə daxil oldum və sifariş verdim. Sifarişim o qədər də gec gəlmədi. Yarım saat ərzində yenidən hərəkətə başladım, lakin Gəncədən Şəmkirə keçən yolda polislər məni saxladı. Atamgil məni itkin kimi qələmə veriblər. Offf deyib bu cəhdimdən də imtina etdim. Yenidən Bakıya qayıdıram. O daş hasarlara, həbsxanaya...

Burada məni atam və anam qarşıladı. Avtomobildə tək qalan kimi, atamdan yenə bir şillə yedim.

_Əəə küçük, hara gedirsən? Sən nə axmaq adamsan? Qalarsan otağında ağlın başına gələndə çıxarsan oradan.

Atamın nə dediyini anlamadım. Özümü günahkar hiss etmirdim. Əksinə xoşbəxt idim. 6-7 saat da olsa azadlığım məncə bir şilləyə dəyərdi.

***

Həyat mənə ilk zərbəsini endirdi. Gülnar artıq həyatımda olmayacaqdı... Başım qarışıq olanda mənə həyatı necə yaşamaq lazımdı öyrədən olmayacaqdı. Gülnar öldükdən bir ay sonra belə onun rəsmini sol cibimdə saxlayırdım. Gülnar həyatımda qalsaydı, Gülnar ölməsəydi, bəlkə də evli idim onunla. Bəlkə indi uşaqlarımız vardı. O çox sevdiyi Orxan adını oğlumuza, Tahirə adını isə qızımıza qoymuşduq. Gülnarın ölümündən sonra belə yoxluğuna alışmamışdım. Hər səhər bufetdə iki kofe alıb gəlməsini gözləyirdim. Kofeni təzə alanda dumanı ətrafa yayılırdı, qoxusu adama xoş gəlirdi. Bir müddət sonra o duman və qoxu olmurdu. Gülnar da elə idi, həyatıma daxil oldu, ilk vaxtlar qoxusu və görüntüsü ilə məni valeh etdi. Bir müddət sonra isə nə qoxusu qaldı, nə görüntüsü. Mən diplomumu alandan sonra artıq universitetlə bağlı bütün xatirələrimi sildim. Gülnarı silə bilmədim. O mənim qəlbimin dağı olaraq qalacaq…



Səhər olmuşdu, atamla anam məni oyatdı. Sanki dünən heç yaşanmamış kimi deyib gülürdülər. Atama və anama baxdım. Tədirgin oldular.

_Ata, ana, sizə bir sualım var?

_Buyur, oğlum.

_Xoşbəxtsiniz?

Atamla anamın yeməkləri boğazlarında qaldı.
_Murad, bizim xoşbəxtliyimiz sənsən, ailəmizdi. Sən evlənəndən sonra nəvələrimizdi. Sənin sağlamlığındı.
_Ey ata, ey ana, anlamadınız məni, mən xoşbəxt deyiləm. O qız kimdi axı? Və o söz nədi ki, məndən üstün tutulur?

Atam əlindəki qaşığı boşqaba atdı və masadan qalxdı. Mən də eynən qalxıb otağa çıxdım. Notebook-u açıb, sosial şəbəkələrə baxdım. Elektron poçtumda belə heç nə yox idi. Sadəcə iş yerindəki bir neçə işarəli sənədlərdən başqa.

Yerimə uzandım, nə edəcəyimi düşünməyə başladım. Amma heç nə edə bilmirdim. Əlimdən heçnə gəlmirdi. Atama, anama nə deyirdimsə, fayda etmirdi. Deyəsən, onlarla razılaşacağam. Nəysə özümə bir həftə daha vaxt verim bəlkə düzəldə biləcəm.

Masamda köhnə radio var idi. Götürüb “play” düyməsini sıxdım. Həzin və retro musiqi səslənirdi. Möhtəşəm idi. Sanki pianoda insanı tilsimləyən nə isə var idi. Heyrətlə beynimə yansıyan musiqi sədalarını anlamağa çalışırdım. Notlar beynimdən qəlbimə doğru hərəkətə gəlməyə başlayır və qəlbimdən də ağzım vasitəsi ilə zümzümə edirdi. Bu möhtəşəm idi. Sanki bütün olanlar, bu ömrüm bir yuxu idi. Bu yuxudan ayılacam və hər şey daha gözəl olacaqdı. Amma heyif ki, elə deyildi. Kaş ki, həyatımıza bir “replay” ya da “reset” düyməsi qoyulsa idi. Bəyənmədiyimiz yerlərdə “reset” edib hər şeyi başdan

başlayardıq, bəyəndiyimiz yerləri isə “replay” edərək dəfələrlə izləyə bilərdik. Özümə güc yığıb birdaha cəhd edəcəyimi dedim. Lakin özümə inamım qalmamışdı. Mən bu oyunda məğlub idim. Biraz fikirlərimi dağıtmaq üçün, gəzməyə qərar verdim. Bu dəfə avtomobillə yox piyada. Bu gəzinti nə qədər çəkəcəkdi bilmirdim. Telefonumu üstümdə götürdüm ki keçən dəfəki kimi olmasın.

***

28 May metrosunun yaxınlığında bir yer var idi. Buradan demək olar ki, bütün şəhəri görmək mümkün idi. Hətta buraya gəlib-gedən insanlar burada kiçik oturacaqlar da düzəltmişdilər. Buraya ilk dəfə idi ki, gəlirdim. Bir yolu izlədim və məni buraya gətirib çıxardı. Mən heç siqaret çəkməmişdim. Artıq burada birini çəkəcəkdim. Siqaret paçkasını açıb, içindən bir ədəd götürdüm. Dodaqlarımın arasına alıb alışqanla yandırdım. İlk tüstüdə öskürəkdən boğulmuş kimi oldum. İkinci tüstü artıq boğazımı qıcıqlandırdı. Üçüncü tüstüsündə isə heç nə hiss etmədim. Atam indi əlimdə siqaret görsə məni nə qədər döyərdi.

Ehh yaşayırıq, amma nəyə, niyə yaşadığımızı bilmirik. Bari ölümümüzü tezləşdirəcək vərdişlərə yiyələnək. Burada yatmaq olsa, çox gözəl olardı. Şəhərin yüksək binaları, göydələnlər ayaqlarının altında imiş kimi hiss edirdin. Sən ən böyükmüşsən kimi gəlirdi. Sanki sənin qanadların var və uçursan. Bakı şəhərinin gecə görüntüsünə isə aşiq olursan. Kaş ki qanadlarım olsa da bu Bakı şəhərinin üstündən uçub getsəm. Qanadlarım olsa da məni azadlığa uçursa. Amma olmurdu… Artıq həyatı yalan doğru anlayırdım. Bəzən ağladırdı, bəzən güldürürdü, amma bəzən alırdı əlimizdən hər şeyimizi...

Hava qaranlıqlaşır və anam zəng vururdu. Telefona cavab verib yenidən evə doğru yollandım. Atamın maşını ilə bərabər evə daxil oldum.
Atam maşını qaraja salıb, arxamca cəld addımladı.

_Axşamın xeyir, Murad necəsən?

Atamı eşitmirdim, çünki kapüşonum altında qulaqcıq vardı və atam əlini çiynimə atıb, məni geri çəkdi.

_Heyyy, Murad özündəsən?
Qulaqcığımı çıxarıb: “Nə?”-dedim.

_Deyirəm, axşamın xeyir, necəsən?

_Hə ata, çox sağ ol!

_Günün necə keçdi? İşə getdin?

_Ata, mən işdən çıxmışam.

_Mən danışaram, sabah işinə get.

_Yaxşı, ata.

***

Artıq bütün olanlarla barışırdım. Çünki ata və anamın inadından keçilməzdi. Birdə ki, onlar çox istəyir ki, mən o qızla ailə qurum. Mən də ailə quracağam onunla. Görək anam və atam necə qərar verir. Bu gəzintidən sonra duş alıb, axşam yeməyi üçün süfrəyə gəldim. Atam və anama mövzunu açıb danışacam.

_Ata! Ana! Mən razıyam, gedək sabah o qızı alaq!

Atam düz gözümün içinə baxdı, anam sevincdən boynuma

sarıldı. Çox qəribə idi. Dünən mən qarşı çıxanda, valideynlərim mənə heç sarılmadı. Bu gün amma sarıldı. Demək valideynlər, bizi ancaq öz qərarları üçün sevirlər. Təbii ki, bura hər valideyni aid etmək olmaz. Nəysə atam nəsə deyəcək deyəsən.

_Murad, axır ki, biz deyəni anladın. Bax, oğlum, həyatın çox gözəl olacaq. Fatimə pis qız deyil. Xasiyyəti, gözəlliyi. Hər şeyi yerindədir. Sabah gedib, qızı ailəsindən istəyək.

_Yaxşı ata.

Masadan qalxdım. Otağıma çıxıb, sabah üçün hazırlaşdım. Səhər tezdən oyanıb, işə getdim. Yenə çox mənasız və sıxıcı idi həyat. Lakin  nə şikayətim olacaqdısa, ancaq özüm də heç kəsə bir kəlmə də deyəsi deyildim. Günorta anam zəng vurdu: "Murad, axşama hansı kostyumunu hazırladım"-deyə soruşdu. "Hansını istəyirsənsə, ana"-dedim, telefonu söndürdüm. Mənə Fatimə maraqlı gəlirdi. O qız necə razı olub axı heç tanımadığı mənlə həyat qurmağa? Bəlkə onu da valideynləri zorla evləndirir deyə düşündüm yenə. Amma artıq düşünməyəcəm, bezmişəm daha nə olar, olar.

***

Axşam işdən çıxdım. Mobil telefonumun saatına baxdım, 18:45 idi. Evə çatmağıma az qalmışdı. Heç evə getmək istəmirdim. O insanları bir də görmək, onlarla söhbət etmək istəmirdim. Ancaq onlar mənim valideynlərim idi. Nə etsəm də, fayda yox idi. Evə çatdım. Atam və anam qapının ağzında məni gözləyirmiş. Tez içəri salıb hərəsi bir tərəfimi düzəltdi. Anam qalstukumu bağladı, atam saçlarımı daradı. Onlar bunu edəndə, mən nə qədər qayğıya ac olduğumu hiss elədim. Ehh bilirəm ki, səhv edirəm amma başqa variant yoxdur. Fatiməgilə yola düşdük. Onlar bizdən çox da uzaqda deyilmiş. 20 dəqiqəlik yol getdik. Böyük bir evin qarşısında atam maşını saxladı. Qapılar açıldı və

içəridən ortayaşlı kişi və qadın çıxdı. Atam və anam maşından düşüb görüşdülər. Anam əli ilə mənə maşından düşməyimi söylədi. Maşından düşdüm, o gombul bığlı kişli mən əl sıxdı. “Demək mənim kürəkənim sənsən? Haaa əəə?”-dedi. Bir də möhkəm qəh-qəhə çəkib güldü. O an əsəbimdən nə edəcəyimi bilmirdim. Az qaldım kişini əllərimlə boğam. Üzümü çevirib, atama hirslə baxdım. Anam qoluma girib gülümsədi və məndən də gülümsəməyimi xahiş etdi. Bizi içəri dəvət etdilər amma qızı hələ də görməmişdim. Adını belə bilmədiyim biri ilə bir həyatı necə bölüşəcəm bilmirəm. Bu böyük evdə, bahalı xalçalar, bahalı qapı dəstəkləri belə ilk dəfədən mənim nifrətimə səbəb oldu. Bu kobud, qarnı yekə yenə başladı: “Murad, ayə qızıma mən indiyə kimi gözüm kimi baxmışam. İndidən sonra ona sən baxacaqsan. Səhv etsən səni şapalaqlıyaram”-deyib hayasızca güldü. Bu həyasız gülüşü susdurmalı idim. “Bu günə kimi baxmısan lap yaxşı, elə çox istəyirsən bu gündən sonra da sən bax! Hələ qızının adını bilmirəm, görməmişəm!”-dedim və o həyasız gülüş qəzəb dolu qışqırığa səbəb oldu. Ata və anamın mənə baxıb gözlərini bərəltməkləri bir yandan da, bu qarnıyekənin: “Sən nə danışırsan əəə? Səni əlimlə boğaram”- kimi gic-gic ifadələri… Atam ortalığı sakitləşdirmək üçün fərqli mövzuya yayındırmağa çalışırdı söhbəti, amma, deyəsən, çətin alınacaq. Bu qarnıyekə: “Heyif İslam, sənə verdiyim söz olmasa, bu cırtdanı burdan qovardım”-dedi. Ağzımı açıb danışmaq istəyirdim ki, atam: “Hələ uşaqdı, Rasim, biz onlar üçün çalışırıq”-dedi. Atamla bu qarnıyekənin dialoqundan sıxılırdım. “Məni bağışlayın, həyətə gedib biraz hava alım gəlirəm”-dedim.
“Hə çıx çölə, istəyirsənsə çay göndərim?”-dedi qarnıyekə. Təəccübləndim buna, nəzakətlə soruşdu çünki. “Xeyr, çox sağ olun!”-deyib həyətə çıxdım.

***

Bu evin həyəti çox böyük idi. Biraz həyətə göz gəzdirdim. Heç nə yox idi. Lakin evin girişindən biraz sağda, xırda bir çardağ vardı.

Çardağın altında oturdum biraz. Siqaretimi yandırıb çəkməyə başladım. Bir-iki tüstü almışdım ki, arxa tərəfdən bir səs gəldi. Nə edəcəyimi bilmədim, siqareti cəld yerə atıb ayaqladım. Arxaya baxanda isə bir qız gördüm. Ağbənizli, 1.60 boylarında göyçək qız idi. Mənə doğru gəlirdi. Çox güman bu Fatimə idi?! Məni evləndirmək istədikləri qız idi?!

_Salam.

_Salam, Fatimə sizsiniz?

_Bəli! Siz də Murad olmalısınız?

_Hə, mənəm Murad. Fatimə xanım, siz necə razı oldunuz? Bütün bunlara heç qarşı gəlmədiniz? Sən məni heç görməmisən, tanımırsan axı.

_Bilirsən, Murad, ilk başlarda çox dalaşdım atamla, lakin razı sala bilmədim. Sevdiyim var dedim. Onu öldürməklə hədələdi. Çarəsiz qaldım, qəbul elədim.

_Fatimə, gec deyil. Gəl, gedək danışaq. Bizim həyatımız məhv olar. Mənlə xoşbəxt ola bilməyəcəksən. Heç mən də xoşbəxt olmayacam.

_Gecdi, Murad, barışmaqdan başqa çıxış yolumuz yoxdu. Biri var öldürək özümüzü. O da olmaz.

Fatimə bütün ümidini itirmiş kimi danışırdı. Yazıq qız! Gör, ey vicdansız əclaf, öz qızını nə ilə hədəliyib. Bir çıxış yolu axtarmağa başladım. Axı nə isə bir yolu olmalı idi. Bu vicdansızları başa salmağın bir yolu olmalı idi.
Bütün bunları düşünüb dayanırdım. Bir səs gəldi, bizi

çağırırdılar. İçəri keçdik. Belə tanışma heç olmamışdı. Belə qız istəmək heç olmamışdı. İçəri keçdim, hüznlü baxışlarımla valideynlərimə baxdım. Bəlkə qərarlarından dönərlər deyə, amma alınmadı. Mənim sonuncu ümidim o an söndü. Artıq nə etsəm də bu yoldan dönə bilməzdim. Fatimə haqlı idi, artıq hər şey üçün çox gecdir…

***

Atamgil qızı istədilər, onlar da verdi. Hər kəs qucaqlaşdı. Sanki bu daşdan divarlar ağlayırdı tək bizə. Fatimə ilə məndən başqa hərkəs gülür, əylənir. Tək ikimiz için- için ağlayırdıq. Bu gecə burda bitdi. Sağollaşıb evə gəldik. Atamgili göndərdim, onlara tək qalmaq istədiyimi dedim. Hər nə qədər narazı olsalar da, qulaq asmadım. Yenə gəldim oraya: o hündür yerə. Gecələr ayrı bir gözəlmiş bura. Sanki şəhərin işıqları mənə görə yanır. Gülnar yadıma gəlir. Gülnar, çox gözəl gülərdin. Burda olsaydı da bircə dəfə gülümsəyəydi. Hər şey yaxşı olacaq deyəydi. Amma yoxdu, Tanrı sən necə edirsən bütün bunları? Gülnarı necə əlimdən aldın? Məni necə onsuz qoydun? Niyə etdin bunu? Hər şeyin günahkarı sənsən! Fatimənin sevdiyinə qovuşmamağının, mənim Gülnarımı əlimdən almağının! Hər şeyin günahkarı sənsən. Bəzən insanlar biri-birilərinə qarğış edəndə, “cəhənnəmdə yansın” deyirlər. Sən məni cəhənnəminə almadan yandırdın. Beləcə bu gecəmi də bitirirəm. Üzgün bir vəziyyətdə, ayağlarımı sürütləyə-sürütləyə evə gedirəm. Yaşadığım bu həyat klounun təbəssümü qədər yalandır.



Evə çatdığım ilk dəqiqə, anam halımı soruşdu. Normal olduğumu deyib otağa çəkildim. Atamla anamın sevinci gözlərindən oxunurdu. Onlar çox xoşbəxt idilər, sonda istədikləri olurdu. Hər nə qədər qəbullanmasamda, bilirdim ki, bütün çırpınışlarım boşunadır. Bundan sonra bu rəngsiz həyatımı, rəngləmək vaxtıdır. Ölüm haqqında düşünə bilmərəm. Çünki çox gəncəm. 25 il çox azdı, bu həyatı 25 ildi boş yaşayıram. Barı qalan ömrümü xoş günlərlə keçirim. Qərara gəldim ki, Fatimə ilə yaxınlıq qurum. Çünki Fatimə də qəbullanmışdı, bu hadisəni. Fatimə ilə biraz vaxt keçirək, bir-birimizi tanıyaq. Bəlkə sevdik?! Bu ümidlə ilk görüş üçün zaman müəyyənləşdirməli idim. Fatimənin məndə telefon nömrəsi yox idi. Yalnız ünvanını bilirdim. Onlara getmək, normalda 30 dəqiqəlik yoldu, lakin Fatimə ilə görüşmək üçündür ki, 1 həftədir gedib gəlirəm. Gah evlərinə çatıram, nə deyəcəm deyib qayıdıram, gah da o yekəqarın ilə qarşılaşmamağı istədiyim üçün geri qayıdırdım. Nəhayət bu gün, bütün cəsarətimlə, qapını döydüm. Biraz gec olsa da qapını Fatimənin anası açdı. Təəccüblə mənə baxdı.

_Salam, Fatiməni olar?

_Salam Murad, buyur keç içəri.

_Çox sağ olun! Fatiməni olar 1 dəqiqəlik?

_Gözlə, çağırım.

Çox çəkmədi, Fatimə gəldi.

_Murad, necəsən?

_Çox sağ ol! Fatimə bir söz deyəcəm.

_Buyur, Murad.

_Fatimə, bu günlük planın yoxdursa, bir az gəzək mi?

_Gəzək. Keç evə, paltarımı dəyişim gəlirəm.

_Yaxşı.

Fatimənin anası bir stəkan çay gətirdi. Bu necə olacaqdı bilmirəm. Çox qəribə hiss edirəm. Fatimə məni sevmir, mən onu sevmirəm. Amma evlənəcəyik, bir ömrü bir evdə paylaşacağıq. Heç olmasa toy gününə qədər, bir az öyrəşək bir-birimizə. Görəsən, belə vəziyyətdə olan tək bizik mi? Məncə yox! Cəmiyyət olaraq fərqinə varmadığımız çox şey var. Ən əsası isə sevginin fərqinə varmırıq. Bir qızın oğlanı sevməsini və yaxud da bir oğlanın qızı sevməsini qəbul etmirik. "Əşşi sevgi nədir axı?!"- deyənlər var. Valideynləri tərəfindən güclə evləndirilən nə qədər qız var. Bizim patokdan 4 qızı güclə başqa biri ilə evləndirmişdilər. Bu cür mövzulara diqqət yetirilməlidir. Əks halda boşanmaların və intiharların sayı daha da artacaq.

Fatimə gəldi. Əslində səmimi və şirin qız idi. Bu məni ona tərəf çəkirdi, amma Fatimə ilə heç cür evlilik düşünə bilmirdim.

_Gedək, Murad?

_Gedək, Fatimə.

***

Fatiməgilin evindən çıxdıq. Heç nəyi düşünməmişdim. Fatimə ilə

hara gedəcəyimizi, nə edəcəyimizi belə düşünməmişdim. Dənizkənarı bulvara tərəf gedirdik. Fatimə arabir danışır, söhbət etməyə çalışırdı. Hərdən gülümsünür, hərdən kədəri gözlərindən oxunardı. Fatimə ilə biraz maraqlandım. Universiteti keçən il bitirib. Bakı Ali Neft Məktəbinin məzunudur. Həm də gözəl rəsmlər çəkir. Mənə çəkdiyi rəsmlərin bəzilərinin şəklini göstərdi. O çəkdiyi şəkillərə baxanda, heyrətimi gizlədə bilmədim. Möhtəşəm rəsm əsərləri var. Sual verdim: "Sərgi niyə keçirmirsən?"-Fatimə susdu. Cavab vermədi. Onda anladım ki, ailəsi ya da insanların rəsmlərə marağının olmamasını deyəcək. Həqiqətən çox qəribəyik, bu həyat bizə bir də verilməyəcək. Niyə etmək istədiklərimizdən imtina edirik? Hava qaranlıqlaşırdı. Artıq Fatiməni evə aparmalı idim. Çox gec olmuşdu. Mən Fatiməyə baxıb, evə getməli olduğumuzu dedim. Etiraz etmədən "gedək"-dedi. Yavaş-yavaş addımlarla dənizkənarı bulvardan uzaqlaşdıq. Mən bir şeyi başa düşdüm, biz bu ədalətsiz quruluşun qurbanlarıyıq. Nə olur olsun, Fatiməni əsla üzməyəcəm. Hətta belə görüşləri tez-tez təşkil edəcəm. Fatiməni evlərinə yola salıb, özüm də evə yollandım. Yenə eynən həmişəki kimi evdəkilərlə salamlaşıb otağıma çəkildim. Gecələr məni düşünməyə vadar edirdi. Düşündükçə hüznlənirdim. Həm özümü, həm də Fatimə qurtarmağa çalışırdım.

Əslində Murad çox şey istəməmişdi. Həyatını, ən pis vaxtlarını, ilk dəfə aşiq olduğu Gülnarı danışmaq istəmişdi. Anasının qarşısına keçib "Ana, mən səndən başqa qadına aşiq olacaq qədər, böyümüşəm"-demək istərdi. Amma lənətə gəlmiş məsafə Muradın bu arzusunu gözündə qoymuşdu. O, ilk dəfə ağlayanda hiss etmişdi acını. İtirdiyi Gülnarı qaytara bilməyəcəyini onda anlamışdı. Həyatın necə də acımasız olduğunu, bizi daima sevdiyimiz yerlərdən vurduğunu, hər zaman yıxılmağımızı arzuladığını onda anlamışdı. Murad Gülnarı itirdiyi gün, öz günəşini bir dəfəlik söndürməyə hazır idi. Lakin onun qarşısını

kəsən, valideyin sevgisi idi. Anasının və atasını bir daha görə bilməmək qorxusu idi. Hər nə qədər Muradsız iş görsələr də, Murad onları çox sevirdi. Məsələn, ilk dəfə məktəbdə yıxılmışdı. Sinif rəhbəri anasına zəng vurub çağırmışdı. Həmin an gəlmişdilər. O gündən Muradın futbol qadağası qoyuldu. Siz anlaya bilməzsiniz, 9 yaşlı bir uşaq üçün oyun qadağası qoyulmağını. O canlı qaçmaq, yıxılmaq, ayağını yaralamaq o ən gözəl duyğulardan biri idi. Lakin Murad 9 yaşında o sevincini itirdi. Bəlkə də, daha çox oynayıb, daha çox yıxılsa, Murad indi ayaqda dimdik durmağı bacarardı. Çünki uşaqlar aldığı yaralarla böyüyər. Necə ki, hər yaşda yara alırıq. İstər mənəvi, istərsə də həqiqi. Hər ikisi də eynidi: qanadar. Biri ürəyini, digəri bədənini. Biri ruhunu yaralayar, digəri cismini. Murada yaralarla mübarizə aparmağı yox, yaralardan qaçmağı öyrətmişdilər. Onun üçün, aldığı hər yaradan qaçdı. Böyüdü və yenə də qaçır. Necə Gülnarla yıxıldı, böyük bir yara aldı. Murad qaçdı.
Murad yarası ilə mübarizə aparmadı deyə onun yarası həmişə qanadı.

***

Səhər olmuşdu artıq. İşə getmək üçün hazırlandım. Çantamı və maşınımın açarını götürüb evdən çıxdım. Maşını ofisin qarşısındakı avtoparkda saxladım. Bu səhər nəsə fərqli hiss edirdim. Ayaqlarımı sanki bir qüvvə bezikdiyim iş masama doğru itələyirdi. Doğrusu çox maraqlı idi. Bu qədər müddətdi burada işləyirəm, amma yalnız bu gün bura mənə əziz, doğma gəlir. Tələsən addımlarla ofisə daxil oldum. Üzdəki təbəssümlər saxta deyildi, gözlərinin içi belə gülürdü hər kəsin.

_Sabahınız xeyir, uşaqlar! Bu gün nolub? Hər kəs fərqlidir.

“Murad, sənin xəbərin yoxdur?!”-deyə köməkçim mənə təəccüblə baxdı.

_Yox, yoxdur. Nə olduğunu desəniz mən də biləcəm.

_Ayşən qayıdıb! Artıq o bizimlə, bu ofisdə birgə işləyəcək.

Məlum oldu, bu gün niyə bu qədər həvəsli gəldiyim. Ayşən bu işdə tək dərdimi böldüyüm insan idi. Onunla çox gözəl vaxt keçirdi. Boş zamanlarımızda, birlikdə gəzərdik. Ona öyrəşmişdim! Onu sevməyə başlayırdım ki, Ayşən işdən ayrıldı. Bizimlə sağollaşdı, mənlə sağollaşdı və tərk etdi. Səbəb belə demədən Ayşən yoxa çıxdı. Ayşən, Gülnardan sonra dərdimi böldüyüm yeganə insan idi.



Məlum oldu bu gün niyə bu qədər həvəsli gəldiyim. Ayşən bu işdə tək dərdimi böldüyüm insan idi. Onunla çox gözəl vaxt keçirdi. Boş zamanlarımızda birlikdə gəzərdik. Ona öyrəşmişdim! Onu sevməyə başlayırdım ki, Ayşən işdən ayrıldı. Bizimlə sağollaşdı, mənimlə sağollaşdı və tərk etdi. Səbəb belə demədən Ayşən yoxa çıxdı.

Ayşən Gülnardan sonra dərdimi böldüyüm yeganə insan idi. O bilirdi məni. İkili yaratmışdıq Ayşən ilə mən. İşdən qalan boş vaxtlarımızda hərdən görüşərdik. İşdə də eynən, heç ayrılmırdıq. Bəstəboy, ağbəniz, qara saçlı qız idi. Zarafatlaşanda tez-tez boyuna ilişərdim. Bu onu qıcıqlandırardı və onun

qıcıqlanmağı mənə xoş gələrdi. O da bunu anlayıb mənə qoşulub gülərdi. Bir dəfə ofisdə dəli kimi gülmüşdük. O an kənardakı heç kimə fikir verməmişdik. İnsanlar bizə dəli kimi baxırdılar. Sonra biraz danlanmışdıq müdir tərəfindən. Amma müdirin otağında da sakitçə gülürdük bir-birimizə baxıb. Bu həyatım boyu tanıyacağım ən şən qız idi Ayşən. Elə bir an olurdu ki, bir cümləsi kifayət edirdi məni güldürməyə. Haqqında çox şey danışmağı sevməzdi. Onunla ailəsi haqqında danışmağa çox cəhd etsəm də cəmi bircə dəfə danışmışdı. Onda da çox şey deməmişdi. Atası və anasının ayrıldığını, onun isə anasında qaldığını demişdi. O gündən sonra nə Ayşən danışdı, nə də mən soruşdum. Bəlkə zamanla danışar deyə gözlədim, amma zaman Ayşəni məndən almışdı. Ayşəni təkrar bu ofisdə görəndə çox qəribə oldum. Qaçıb boynunu qucaqlamaq istədim. Gözlərim doldu istəmədən. Bütün olanları danışım, başıma nə gəldiyini. Onun nələr yaşadığını, nə üçün getdiyini, hamısını soruşmağı o qədər çox istəyirdim ki…

***

Bir neçə dəqiqə Ayşənə yaxınlaşdım, uzaqdan baxırdım ona. O isə hələ məni görməmişdi. Özümü bir təhər yığıb Ayşənə tərəf addımladım. Ayaqlarım sanki ona qaçırdı, qollarım ona sarılmaq üçün açılırdı. Mən ona yaxınlaşdıqca sanki aradaki məsafə çoxalırmış kimi olurdu, içimdə pis bir hiss vardı, birdən ona çatmağıma mane olacaq nəsə olacaq və mən Ayşəni qucaqlamadan yenidən itirəcəkmiş kimi hiss edirdim. Ayşənin masasına çatanda ayağım stola dəydi və taqqıltı səsi yayıldı. Ayşən anidən başını qaldırıb məni gördü. Üzündə o möhtəşəm təbəssüm yarandı, üstümə atılıb, bərk-bərk qucaqladı məni. Onu heç buraxmaq istəmirdim. Qolları o qədər şəfqətlə sarılmışdı ki mənə... Onun gül ətirli saçlarının ətrini alanda isə göz yaşlarıma hakim ola bilmədim. Həmən an sanki, illərin ayrılığı gözümdən yaş olub gəlirdi. “Sənin üçün çox darıxmışam”, deyə qulağına fısıltı ilə dedim.

_Mən də sənin üçün Murad. Bu qədər müddətdi səni axtardım. Səndə tapdığım rahatlığı axtardım. Amma qayıda bilməzdim, Murad. Bilirəm, səni çox üzdüm, tək qoyub getdim, lakin buna məcbur idim.

_İndi bu mövzular haqqında danışmayaq. İşdən çıxanda görüşək, bax hamısını bir-bir danışacaqsan. Mən də başıma gələnləri sənə danışacam. _Yaxşı Murad, iş çıxışında gözləyəcəm səni.

_Yaxşı, sağ ol- deyib dialogumuzu sonlandırdım.

Sanki çiyinlərimdə tonlarla yük var və mən o yüklə gəzirəm kimi hiss etdim. Ayşəndən uzaqlaşdıqdan sonra iş masamda əyləşdim. Köməkçim də bir stəkan çay gətirməsini xahiş etdim. Beynimdə o qədər sual var ikən, işlərlə necə məşğul olacaqdım bilmirəm. Köməkçim əlindəki çay stəkanını mənə uzatdı, incə səslə "buyurun",- dedi. Köməkçim Kamilə çox bacarıqlı, nəcib bir xanım idi, demək olar ki, o olmasa mən bu işləri çatdırıb yekunlaşdıra bilmərəm.

Çaydan bir qurtum alıb, sənədləri yoxlamağa başladım. İşləri gördükçə, sanki, saatın əqrəbləri qaçırdı. Bəzən başım o qədər işə qarışır ki, nahar zamanı belə kimsə səslənib məni çağırmasa orda da qalıram. Əslində, bu gün vaxtın tez keçməsini çox istəyirdim, çünki çox həyəcanlanırdım, illər sonra Ayşən ilə əvvəlki vaxtlarda olduğu kimi yenə görüşəcəyik. Mənim bu sıxıcı dünyamı az da olsa gözəlləşdirməyi bacarmışdı, sabaha ümidlə baxmağı öyrətmişdi mənə. Fikrimi toparlamağa çalışırdım ki, Kamilə gəldi: "Nahar vaxtıdır",- deyib yeməkxanaya tərəf düşdü. Mən isə masamdan qalxıb balkona doğru getdim. Papirosumdan birini çıxarıb çəkdim. Tüstü boğazımdan ciyərlərə yayılarkən, sanki, beynimdə olan bütün düşüncələrimdən azad olurdum.

Papirosumu çəkib, yeməkxanaya düşdüm, amma Ayşəni orda görə bilmədim. Gözlərim yeməkxanadakı bütün masalarda Ayşəni axtarırdı. Lakin görə bilmirdim. Yeməyimi tez bitirib ofisə qayıtdım. Ayşənin masasına baxdım. Tək oturmuşdu,

əlindəki bir parça kağızla nəsə edirdi. Amma o, belə çox məsum görünürdi. Onu belə saatlarca izləməyə razıyam. Boynunu əyib bir əli ilə kağızı, digər əlini alnına sıxıb diqqətlə kağıza baxırdı. Heç kəs gəlməmiş, yaxınlaşıb biraz danışmaq istədim. Lakin cəsarət edib yaxınlaşa bilmədim.

Saat 16:43-də telefonuma zəng gəldi. Zəng vuran Fatimə idi. Biraz təəccübləndim. Fatimə nə əcəb mənə zəng vurub? Qəribə idi. Telefonu vaxt keçmədən götürdüm.

_Buyur, Fatimə.

_Salam Murad, necəsən?

_Çox sağ ol, sən necəsən?

_Normal. Murad, bu gün görüşüb danışa bilərik?

_Fatimə, bu gün işdən gec çıxacam, həm də iş yoldaşıma söz vermişəm. Sabah görüşək mi?

_Anladım, sabah görüşərik. Sağ ol!

_Sağ ol, Fatimə.

Telefonu cibimə qoyub, işimi davam etdirdim. Fatimənin məni axtarması, danışmaq istəməsi çox qəribə gəldi.

***

İş vaxtı bitmişdi, çantamı yığışdırdım. Ofisin qarşısına çıxıb Ayşəni gözlədim. Biraz vaxt keçdikdən sonra Ayşən gəldi. "Gedəkmi?"- deyə soruşdum. Başını önə doğru sirkələyib "hə",- dedi. Avtomobilin qapısını açıb: "buyur, Ayşən, əyləş"-,dedim. Nəzakətlə: "çox sağ ol, Murad"- deyərək əyləşdi.

Onu sahilə aparırdım. Çünki nə zaman sıxıntımız olsa orda dərdləşərdik. İndi də ora gedirdik. Yol boyunca heç nə danışmadıq. İkimizdə susmuşduq, sükutu pozan radioda səslənən Nəzakət Teymurovanın “Qal sənə qurba” mahnısı idi. Sanki, ikimizi də susmağa vadar edən o mahnı idi. Əgər illər

öncə Ayşən getməsəydi bu gün ayrı həyatlar yaşıyırdıq. İndi yadlar kimi deyil, ən doğmalar kimi olacaqdıq. Bu avtomobildə 2 nəfər deyil də 3 nəfər olacaqdı. Qızımız Miray olacaqdı, arxa oturacaqdan ikimizə baxıb gülümsəyəcəkdi bəlkə də... Amma heyif... Nə mən illər öncə "qal sənə qurban"-deyə bildim, nə də sən qayıtdın…



Sahilə çatdıq. Onu hər zamankı oturduğumuz yerə apardım. Stolda oturub dənizi seyr etdik. Biraz sonra sükutu pozmaq qərarına gəldim:

_Niyə? Niyə, Ayşən? Nə üçün getdin? Bilirsən, mən səndən sonra nə qədər ağrılar çəkdim. Mən səni sevirdim, Ayşən. Əgər həmən günü qalsaydın sabahı sənə "səni sevirəm" deyəcəkdim. Amma getdin, Ayşən. Niyə getdin?

_Murad bilmirdim. Açığı danışsaq, mənim də sənə qarşı hislərim vardı. Lakin Murad mən getməyə məcbur idim. Əgər getməsəydim, səni bir dəfəlik itirəcəkdim.

_Necə yəni? Ayşən, sən getdin, mən səni itirdim.

_Murad, hər şey çox ani baş verdi. Özümün belə xəbərim yox idi. Ən axırıncı gün bildim və onda da Bakıdan qaçdım.

_Nə olmuşdu, Ayşən? De!

_Murad, məni xalamoğlu ilə evləndirəcəkdilər. Əgər bir gün Bakıda daha qalsaydım, artıq mən evli biri olacaqdım. Səni bir daha görə bilməyəcəkdim. O gün evimizin pəncərəsindən tullanıb qaçmışdım. Sənə xəbər edəcəkdim. Lakin bütün sosial media hesablarını silmişdin, Murad.

_Sən nə danışırsan?! Ayşən, eynisi indi mənə də olacaq. Mən başqa biri ilə evlənəcəm. Həm də qız da başqasını sevir. Amma məcbur edirlər hər ikimizi də.

_Aaa bilmirdim. Bəs indi nə edəcəksən, Murad?

_Bilmirəm Ayşən, ağlım onda, ürəyim səndə. Mən nə edəcəyimi bilmirəm artıq. Bəlkə sən mənə bir ağıl verəsən, biz bundan qurtulaq, ikimiz də öz sevdiyimizə qovuşaq.

_Düşünərik, Murad. Toya nə qədər var?

_Bir aydan az qalıb. Nişan olmadı, tez-tələsik qızı istədilər. Sonra toy tarixi qoydular.

_Çox az vaxt var, Murad. Mən səni itirmək istəmirəm.

_Mən də səni, Ayşən,  həm də yenicə tapmışkən.

Ayşənin də məni sevdiyini öyrənmişdim, çox sevincli idim. Uzun vaxtdan sonra bezikdiyim hər şeyə, cana doyduğum evə yenidən gəlirmiş kimiyəm. Fərqli bir Murad kimi. Lakin bu qədər sevincli olmağıma bir şey əngəl idi: Fatimə. Ağlım onda qalmışdı. Bu gün mənə zəng vurub görüşmək istədi, nə üçün?! Görəsən, indi zəng vurub çağırsam gələ bilər? Saat 20:45, deyəsən, gecdir. Sabah mütləq görüşməliyəm Fatimə ilə.

***

Evə gəldim, qapını açıb salona daxil oldum. Anamla atam oturub televizora baxırdılar. Əslində heç vaxt onları televizora baxan görməmişəm. "Axşamınız xeyir, necəsiniz?" -deyib anı pozdum. Atam: “Axşamın xeyir, Murad, harda qalmısan? Saatdan xəbərin var?” “Ata, saat 21:00. İşdən çıxandan sonra biraz gəzdim”. “Murad, işdən çıxandan sonra harasa gedəcəksənsə xəbər elə!” Atamın bu sözünə gülərək “yaxşı”-dedim.

_Ana! Yeməyə nə var? Süfrəni qur, ana, yemək yeyək, paltarımı dəyişib gəlirəm.

Anam üzünü mən tərəfə çevirsə də gözləri televizorda qalmışdı. “Yaxşı Murad, tez ol”-dedi. Ən sevdiyim mahnını oxuya-oxuya otağıma gəldim. Duş qəbul etdikdən sonra salona düşdüm. Atam televizora tək baxırdı. Anam isə süfrəni qururdu. Birbaşa süfrəyə oturdum. Ac idim və süfrədə anamın bişirdiyi mərci şorbasının ətri otağa yayılmışdı. Anam atamı da səslədi. Uzun müddətdir ki, ailəmlə eyni masada bu qədər sevincli yemək yeməmişdim. Əslində onlar məni qorumaq istəyirlər, amma hər qoruduqca məni itirirdilər. Yemək bitdikdən sonra anam hərəmizə bir stəkan çay süzüb verdi. Biraz deyib-güldük hamımız çox xoşbəxt idik. Atamla zarafatlarım, atamla anamın bir-biriləri ilə zarafatları çox gözəl idi. Heç keçməsini

istəmədiyim bir gün idi. Mən ilk dəfə idi ki, ailəmlə bu qədər səmimi, mehriban olmuşam. Söhbəti atam yekunlaşdırdı: “Gecəniz xeyrə, gedək yataq”- deyib anamla birlikdə otaqlarına getdilər. Mən isə həyətimizə çıxıb siqaretimdən birini çəkib göy üzünə baxmağa başladım. Hərdən atamla anamın zarafatları yadıma düşdükçə gülürdüm. Həyətdə biraz oturdum. Telefonumu Fatiməyə sabah görüşəcəyimizi yazmaq üçün çıxardım. Amma Ayşəndən mesaj gəlmişdi: “Murad, axşamın xeyir, necəsən?” “Çox sağ ol. Sən?” Ayşənə cavab yazdıqdan sonra Fatiməyə zəng vurdum. “Fatimə, sabah saat 19:00-da səni keçən dəfə görüşdüyümüz yerdə gözləyəcəm”. Fatimə səsi titrəyərək “oldu, gələcəm”- dedi. Səsinin titrəməsindən bildim ki, nəsə qəribəlik var. Mənim üzüm təzə-təzə gülməyə başlayıb, lakin Fatimə heç də xoşbəxt deyildi. Mənim ağlım Fatimədə qaldı.

Sabahı açılmağını iplə çəkirdim. Artıq bu toy bəlasından bir təhər qurtulmaq vaxtıdır. Yoxsa Fatimə ömür boyu xoşbəxt olmayacaq. Ehh... nəysə gedim yatım. Yavaş addımlarla salona daxil oldum. Salonun işıqlarını söndürüb otağıma qalxdım. Üstümü çıxarmadan birbaşa çarpayıma uzanıb yatdım. Səhər yenə eyni ssenari ilə işə gedirdim. Lakin artıq oranı sevməyə başlayırdım. Ayşən və digər iş yoldaşlarım çox möhtəşəm idilər. Mən uzun müddətdir ki, uşaqlarla heç ünsiyyətdə olmamışam, amma mənim o dövrümdə mənə bir kəlimə belə şikayət etmədən işləri davam etdiriblər. Ayşən ofisin qabağında idi. Onu görən kimi addımlarımı iri və sürətlə atmağa başladım. Onu bərk-bərk qucaqlayacaqdım. Ayşən “Sabahın xeyir”- dedi. Cavabsız qoyub gözlərinin içinə baxdım və sarıldım. Ona sarılmaq belə gözəl idi. Sanki, bütün problemlərim bitmiş, biz xoşbəxt idik. Ayşəni buraxmaq istəmirdim, amma bu vəziyyət onu narahat edə bilərdi. Bir dəqiqə onunla heç ayrılmadım. Əyilib sol tərəfdən “sabahın xeyir”- deyə pıçıldadım.



Ofisə daxil olduq, “sabahınız xeyir, uşaqlar”- deyib masamda əyləşdim. Ayşən öz masasına tərəf getdi. Mənim ağlım Fatimədə idi. Səsi o qədər aciz, çarəsiz gəlirdi ki, qorxuram başına nəsə bir iş gələ. İşə başım qarışsa da Fatimə yenə də ağlımda idi. Bu halımı Ayşəndən gizlətmək üçün ondan qaçırdım. Mən düşündükçə saatın əqrəbləri öz işini görürdü, axşam işdən çıxan kimi avtomobilimə qaçdım. Ayşənə bir söz demədən cəld ordan uzaqlaşdım. Avtomobili bu qədər yüksək sürətlə sürməmişdim. 15 dəqiqəyə görüş yerimizə çatdım. Piyada təpəyə çıxırdım və nəfəsim daralırdı. Fatimə yuxarıda çarəsizcə oturub aşağıda

qalan şəhərə baxırdı. Çox çarəsiz görsənirdi. Yanına yaxınlaşdım.

_Fatimə, necəsən?

_Çox sağ ol, Murad, sən necəsən?

_Yaxşıyam, de görüm, nolub sənə? Niyə belə qalıbsan?

_Murad, o getdi! O getdi, Murad! Məni qoyub getdi, dünən dedim getmə, ikimiz də qaçaq burdan. Lakin o məni tək qoyub getdi!

Fatimə bunları deyərkən gözlərindən yaş yanağlarına doğru süzülürdü. Çox pis halda idi. Onun bütün ümidləri sevdiyi oğlanda idi. O da getdi. İşlər çox qarışdı. İndi Fatiməni düzəltmək lazımdı, özünə bir şey edər. Sonra mən özümü bağışlamaram.

_Fatimə, o getsin, mən varam! Dostların var, ailən var. Narahat olma, bizim vəziyyətə də bir çıxış yolu tapacam. Sən heç zaman sevmədiyin biri ilə evlənməyəcəksən!

_Murad, mən dözə bilmirəm! Bu yolun geri dönüşü yoxdur. Nə sən, qurtulacaqsan, nə də mən.

_Fatimə, ağlına elə şeylər gətirmə. Mən ikimizi də bu vəziyyətdən xilas edəcəm. Biz heç zaman evlənməyəcəyik. Səni çox istəyəcəm, hər zaman qoruyacam. Amma sənin iznin olmadan səninlə evlənmərəm.

_Yaxşı Murad!

Fatimənin bu halı məni lap üzdü. Əlimlə axan göz yaşını sildim. O balaca üzünü ovcuma alıb təsəlli edirdim. Bir saata yaxın o ağladı, mən isə sakitləşdirdim. Sakitləşdikdən sonra evlərinə apardım. Bu vəziyyətdən necə qurtulacaqdıq onu belə bilmirdim. Fatiməni qorumaq lazım idi. Hər an özünə nəsə edə bilərdi. Hər saatbaşı ona zəng vurub necə olduğunu soruşurdum. Biraz da danışırdıq, rahatlayırdı. Ayşən isə dünən nə üçün elə getdiyimi soruşdu. Bütün olanları danışdım ona.

Yaxşı ki, anladı. Mən bir çıxış yolu tapmalıydım toya qədər. Çox az bir vaxt qalıb. Zaman o qədər tez gedir ki, gözünü açıb yumursan günlər keçir. Fatimə ilə mənim toyuma artıq on gün qalıb. İşdən icazələr alınıb, toy hazırlıqlarına başlanılıb. Daha doğrusu evdəkilər toy hazırlığı edirdi. Ayşən ilə mən isə həm özümüz qaçmağımız üçün, həm də Fatimənin sevgilisini tapmaq üçün gecə-gündüz çalışırdıq. Fatimə son günlərdə tamamən əldən düşüb. Dünən də danışanda heç bir ümidi qalmamış kimi danışırdı. Mən çox qorxurdum. Toy günü yaxınlaşdıqca Fatimənin intihar qorxusu məni sıxırdı. Biraz tez tapsaydıq o oğlanı. Toya 9 gün qalmışdı. Yəni may ayının 16-sı idi. Mən Ayşən ilə avtomobilimi satıb biraz pul əldə etdik. Daha sonra bankdakı bütün pulumuzu çəkdik. Artıq hazırlıqlar sona çatır, may ayının 20-si qaçacaqdıq. Lakin hələ də Fatimənin sevgilisini tapmamışdıq. İçimdəki o şübhə ilə mən burdan necə qaçacaqdım onu bilmirdim. Lakin bu ikimiz üçün də ən uyğun seçim idi. Mən qaçsam Fatiməni də zorla mənlə evləndirə bilməyəcəklərdi, yəni Fatimə də mən də qurtulmuşduq. Ayşən ilə son dəfə Bakının küçələrini gəzirdik. Görüş yerlərimizi, bu şəhərdə olan bütün xatirlərimizi buraya dəfn edib qaçırdıq. Hər şey bir gün daha da yaxşı olacaq düşünürdük. Qaçmağımıza bir gün qalmış evdə idim. Atamla anama baxırdım. Onlardan doymurdum, sabah onları qucaqlamadan gedəcəyəm. Axı necə? Necə olardı belə bir şey? Bizi niyə belə bir şeyə vadar etdilər? Mən indi necə yaşayacam? Ehh ata, ehh ana ehhh… Doğma evimin bağçasında son dəfə addımladım. Atam və anam öz otağlarına çıxdılar.

_Ata! Ana! Gecəniz xeyrə qalsın, mən sizi çox istəyirəm!

_Gecən xeyrə! Biz də səni, Murad!

Ürəyim titrəyirdi həyəcandan. Özüm isə çox kədərlənmişdim. Ey həyat, sən bizi nə fərqli imtahanlara çəkirsən. Biraz daha salonda oturdum. Daha sonra otağıma qalxdım. Pilləkənlərlə

qalxdıqca sanki, uşaqlığımı əlimdən alırdılar. İlk addımlarımı atdığım bu evdə sona doğru addımlayıram. Çox çətin idi. Bu gecə bu evdə keçirdiyim ən uzun gecə olacaqdı. Bütün gecəni yerimdə o yana, bu yana dönüb dolaşdım. Səhər saat 05:55-də yerimdən durub hazırladığım çamadanları götürdüm. Paltarlarımı geyinib evdən çıxdım. Ayşənlə sözləşdiyimiz yerdə görüşəcəkdik. Bizim təyyarə saat 9 -da havaya qalxacaqdı. Ayşənlə görüşüb birbaşa havalimanına getdik. Təyyarədə öz yerimiz aldıq. Təyyarə havalandıqca sanki bütün keçmişimizi də yerdə qoyurdu. Ayşənin əlindən möhkəm tutdum. Gözünün içinə baxdım "hər şey yaxşı olacaq"- dedim…

Mən bu sözü dediyim gündən bu günə tam olaraq iki il keçib. Biz Ayşənlə Kanadaya gəldik. Burada öz həyatımızı qurduq. Kiçik bir book cafe açdıq. Balaca bir ev aldıq. Evləndik, indi bir qızımız var. Adı Fatimədir. Fatimə, evlənəcəyim qız, o isə intihar etdi. Bu hekayədə ən təmiz insan. Ayşən ilə mən qaçan gün intihar edib. Özünü otağının tavanından asıb. Bir kağızda 3 cümlə yazıb: "Xoşbəxtlik məcburiyyətlə olmaz", "bir gün hər şey yaxşı olacaq", "Ata, ana, mənim dəyərli ailəm, sizləri çox sevirdim, bilməzdim sevdiklərim məni öldürəcək" . Fatimənin xəbərini bizə iş yoldaşlarımız dedi. Çox istərdim Fatimə xoşbəxt olsun, o çox gözəl qəlbli idi. Amma bəzən xoşbəxtlik həyatımız qədər bahalı, arzularımız qədər ucuz olur…

Tofiq Vəliyev

# Sönmüş Ümidlər

Redaktor: Cəmilə Kərimova

Dizayner: Tofiq Vəliyev

Bakı-2019